№02 (40) 2019
Mart – Aprel

# AD AZERI DEFENCE

## Müsahibə

AMEA Yüksək Texnologiyalar Parkının rezidentlərinə əlavə güzəştlər veriləcək

IDEX-2019

## YÜNGÜL VƏ ORTA TANKLAR

## Özəl

TAURUS Azərbaycanda

Azərbaycan-Belarus hərbi əlaqələri

Antisnayper sistemləri



Xüsusi təyinatlılar üçün sürətli müdaxilə katerləri



# BU SAYIMIZDA

MART–APREL
№ 02(40) 2019


10



Nazim ŞÜKÜROV

**AMEA Yüksək Texnologiyalar Parkının rezidentlərinə əlavə güzəştlər veriləcək**



4

Azərbaycan-Belarus hərbi əlaqələri



18

IDEX-2019



34

ROKETSAN-dan nöqtə atışı



36

Xüsusi Təyinatlılar üçün Sürətli Müdaxilə Katerləri



43

İranın PUA proqramları İslam Respublikası rəqibləri ilə necə yarışır?



56

Yüngül və orta tanklar



**AZERI DEFENCE**
*Hərbi-texnoloji jurnal*
MART–APREL
№02(40) 2019

Təsisçi və baş redaktor
Rəşad SÜLEYMANOV

*Qiymәti: 6 manat*



**Tel:** (+994 55) 667-50-72
**E-mail:** azeridefence@gmail.com
editor@azeridefence.com
**Web:** www.azeridefence.com
**Ünvan:** Bakı şəhəri, H.Zərdabi küç., 78B AHB İş Mərkəzi, 208

**Türkiyə təmsilçiliyi**
Mehmet Demirkol
Çankaya, 06540 Ankara – TÜRKİYƏ
Tel: (+90 552) 437 32 67
azeridefence-tr@etkilesimltd.com



*2016-cı ilin noyabr ayında yaradılmış Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Yüksək Texnologiyalar Parkı bu gün respublikadakı texnoparklar arasında özünün aktiv fəaliyyəti, xüsusilə də müdafiə sənayesi sektorunda çalışmaları ilə diqqət çəkir. Yeni olmasına baxmayaraq, keçdiyimiz illərdə rezidentlərinin sayını artıran AMEA Yüksək Texnologiyalar Parkının direktoru Nazim ŞÜKÜROV ilə müsahibəmizdə texnoparkın imkan və potensialı, gələcək planları barədə məlumat almağa çalışdıq.*

## Nazim ŞÜKÜROV

# AMEA Yüksək Texnologiyalar Parkının rezidentlərinə əlavə güzəştlər veriləcək

***Azeri Defence: Nazim müəllim, AMEA Yüksək Texnologiyalar parkının yaradılması hansı zərurətdən doğdu? Ötən iki il ərzində Yüksək Texnologiyalar Parkının keçdiyi yolu qısa şəkildə oxucularımıza necə anlada bilərsiniz?***

**Nazim ŞÜKÜROV:** AMEA Yüksək Texnologiyalar Parkı Prezident İlham Əliyevin 08 noyabr 2016-cı il tarixli Sərəncamı ilə Azərbaycanda elmtutumlu məhsulların, innovasiya yönümlü layihələrin, Azərbaycan alimlərinin elmi, təcrübi konstruktor işlərinin aparılması üçün yaradılmış platformadır. Yüksək Texnologiyalar Parkı adından da göründüyü kimi, yüksək texnologiyaların, elmtutumlu məhsulların istehsalı üçün vergi və gömrük güzəştləri olan, Bakı şəhərinin Xətai rayonunda yerləşən 21 hektar ərazidən ibarətdir. Burada müəssisələrin fəaliyyət göstərmələri üçün hər cür infrastruktur mövcuddur. Dəmir və avtomobil yoluna çıxış imkanları var. İnvestisiya cəlbediciliyi təmin edilib. Sahibkarlar üçün ərazi baxımdan uyğundur.

2017-ci ilin iyun ayında Yüksək Texnologiyalar Parkında təşkilatlanma yekunlaşdıqdan sonra rezidentlərin qəbuluna başlanıldı. Bu gün artıq uzunmüddətli layihələr üzrə 10 rezidentimiz fəaliyyət göstərir. Onların arasında müdafiə sənayesi sahəsində fəaliyyət göstərən "Elm və Texnologiyalar Parkı", "Azeltech", "Buta Armor", "DN Technologies", eləcə də mülki və hərbi akkumulyator batareyalarının istehsalı ilə məşğul olan "Azmonbat" kimi şirkətlər var. Bu şirkətlərin istehsal etdikləri bəzi məhsulların ilk nümunələri ordu və digər güc strukturlarının istifadəsinə qəbul edilib və müvəffəqiyyətlə sınaqdan keçib.

Artıq bəzi şirkətlərimiz öz fəaliyyətlərini kommersiyalaşdırıblar. Eyni zamanda ixracla bağlı təkliflər var və işlər aparırıq.

***Azeri Defence: Biznes sektorunu maraqlandıran bir nömrəli məsələ güzəşt və imtiyazlardır. AMEA Yüksək Texnologiyalar Parkının rezidentlərinə verdiyi güzəştlər barədə nələri söyləyə bilərsiniz?***

**Nazim ŞÜKÜROV:** Yüksək Texnologiyalar Parkının rezidentliyini almış hüquqi şəxslər və fiziki şəxslərə bir sıra güzəştlər tətbiq olunur. Rezidentlərə təqim etdiyi imtiyaz və güzəştlərə gəlincə, deyə bilərəm ki, qanunvericiliyə əsasən, rezidentlərimiz (fərdi sahibkarlar) gəlir, mənfəət, torpaq və əmlak vergilərindən 7 il müddətinə azad olunurlar. Rezidentin texnoparkın ərazisində icra etdiyi layihələr çərçivəsində idxal etdiyi texnika, texnoloji avadanlıq və qurğu gömrük rüsumlarından və idxalda ƏDV-dən 7 il müddətinə azaddır. Hansı ki, bu məhsulun maya dəyərinə 50%-ə qədər təsir göstərir. Bundan əlavə, qeyd etdiyim kimi, texnoparkı-



mız bütün infrastruktura malikdir. Burada həm hazır istehsalat sahələri, həm anbar imkanları, həm yeni istehsalatın tikilməsi üçün boş torpaq sahəsi və s., yəni bütün şərait mövcuddur. Biz burada rezident üçün istənilən şəraiti yarada bilərik ki, onlar öz işlərini qura bilsinlər.

İndi biz hökumətin müvafiq strukturları qarşısında təkliflə çıxış edirik ki, Vergi Məcəlləsinə və Gömrük Tarifi Haqqında Qanunvericiliyə investisiya üçün daha əlverişli mühiti yaratmaq məqsədi ilə yenə dəyişikliklər edilsin. Rezidentlərimizə şamil edilən 7 illik güzəşt müddəti artırılsın, eləcə də onların idxal etdiyi texnikanın, texnoloji qurğuların, avadanlıqların ehtiyat hissələri də gömrük rüsumundan və əlavə dəyər vergisindən azad olunsunlar.

Tətbiqinə çalışdığımız başqa bir yenilik barədə də məlumat vermək istəyirəm. Cənab Prezidentin 08 noyabr 2016-cı il tarixli sərəncamının 8.8 bəndinə əsasən, AMEA Yüksək Texnologiyalar Parkının rezidentlərinin məhsullarının dövlət əsaslı sifarişlə alınması nəzərdə tutulur. Bu işlər üçün aidiyyəti qurumların iştirakı ilə mexanizmlər hazırlanır. Həmin mexanizmlər "Dövlət satınalmaları haqqında" qanuna uyğunlaşdırılıb. Bu mexanizmlər 100 faiz dövlət mülkiyyətində olan və 51 faiz payı dövlətə məxsus təşkilatlara şamil olunacaq. Biz həmçinin rezidentlərimizin məhsulları barədə informasiyaların yer aldığı portal da hazırlamışıq.

***Azeri Defence: Rezident şirkətlər bu güzəşt və imtiyazlar qarşılığında texnoparka hansısa vəsaitlər ödəyirmi?***

**Nazim ŞÜKÜROV:** Qeydiyyat və rezidentlik innovativ layihələrin Ekspertlər Şurası tərəfindən qiymətləndirildikdən sonra rəy əsasında verilir. Rezidentliyin verilməsi ilə bağlı hər hansı vəsait nəzərdə tutulmur. Rezidentlik verildikdən sonra rezidentlər Yüksək Texnologiyalar Parkı ilə xidmət müqaviləsi bağlayırlar. Burada tərəfimizdən göstərilən xidmətlər və rezident şirkətin ödəyəcəyi icarə haqqı göstərilir. Yüksək Texnologiyalar Parkının nümunəvi əsasnaməsində göstərildiyi qaydada, biz rezident şirkətlərə uyğun tariflər təqdim edirik ki, onlar hansısa sıxıntı yaşamasınlar.

*AMEA YT Parkının rezidenti "Azeltech" MMC tərəfindən istehsal edilən "İldırım-RP10" radio partladıcı sistem və "Sipər" sərhəd mühafizə sistemi Naxçıvanda keçirilən təlimdə praktiki istifadə və nümayiş etdirilib.* ***Foto: AMEA YT Park***

***Azeri Defence: Rezidentlik üçün yeni müraciətlər varmı?***

**Nazim ŞÜKÜROV:** Deyə bilərəm ki, həm dövlət, həm də özəl sektor tərəfindən fəaliyyətlərimiz təqdir olunur. Buna səbəb bizim, İdarəedici Təşkilat kimi işlərə çevik yanaşmamız, dövlət dəstəyini həyata keçirən orqan kimi investorun, sahibkarın, innovatorun yanında bir böyük qardaş kimi olmağımızdır. Platformamızın cəlb-



*"Azeltech" şirkəti tərəfindən yaradılmış mini kəşfiyyat PUA-ı.* ***Foto: AD***



ediciliyidir. Bu günədək Yüksək Texnologiyalar Parkına 37 milyon manatadək investisiya cəlbinə nail olmuşuq. Rezident olmaq istəyən şirkətlərdən xeyli müraciətlər var. Eləcə də AMEA-nın regional bölmələri də müəssisələr yaratmaqla öz layihələrini reallaşdırmaq istəyirlər. Lakin hər sahibkar bu platformadan istifadə edə bilməz. Bilirsiniz, elə sahibkarlar var ki, onlar az vergi ödəmək xatirinə rezident olmaq istəyir. Yalnız elmtutumlu, innovasiyalı, yüksək texnoloji məhsullar istehsalına yönəlik, idxalı əvəz edən, gələcəkdə ixraca istiqamətlənən, böyük dəyər yaradan elmli iqtisadi seqmentlər platformadan istifadə üçün prioritetlidirlər. Hətta qabaqcıl beynəlxalq texnologiyaların da Azərbaycana transferini nəzərdən keçiririk.

***Azeri Defence: AMEA Yüksək Texnologiyalar Parkının rezidentliyi yalnız Azərbaycanda qeydiyyatdan keçən hüquqi və fiziki şəxslərə verilir? Yoxsa xarici şirkətlər də rezidentlik üçün müraciət edə bilərlər?***

**Nazim ŞÜKÜROV:** Qanunvericiliyin tələblərinə əsasən, Yüksək Texnologiyalar Parkının rezidentləri Azərbaycanda hüquqi statusa malik şəxslər olmalıdırlar. Başqa sözlə, onlar qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasında qeydiyyatdan keçməlidirlər. Xarici şirkətlər Azərbaycanda özlərinin yerli şirkətlərini açmaqla rezidentimiz ola bilərlər. Qeyd edim ki, xarici şirkətlərdən də müraciət edənlər var. Hazırda danışıqlar gedir.

Diqqətinizə çatdırım ki, Yüksək Texnologiyalar Parkında təqdim edilən güzəşt və imtiyazlar şərait yaradır ki, istehsal ediləcək məhsulun maya dəyəri texnoparkdan kənarda istehsal olunan məhsulun maya dəyərindən 2 dəfəyə qədər aşağı olsun. Bəli, bu, istehsalçılar üçün mühüm faktordur.

Eyni zamanda məhsul istehsalında yerli xammaldan istifadə olunması vacib şərtlərdəndir. Yəni xaricdən gətirilən malların istehsal etdiyimiz məhsulda xüsusi çəkisinin aşağı olması vacib məsələdir, qabaqcıl texnika, texnoloji avadanlıq və qurğunun idxalı istisna olunmaqla. Qeyd edim ki, rezidentlərimizin xaricdən texnika, texnoloji avadanlıq və qurğunun idxalında gömrük rüsumlarından azad olması da böyük üstünlükdür.

***Azeri Defence: Nazim müəllim, AMEA Yüksək Texnologiyalar Parkında müdafiə təyinatlı layihələr həyata keçirən şirkətlərin adlarını qeyd etdiniz. Bu rezidentləriniz və onların həyata keçirdikləri layihələr barədə bir qədər detallı məlumat verə bilərsinizmi?***

**Nazim ŞÜKÜROV:** Rezidentlərimiz Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası, Dövlət Sərhəd Xidməti, ANAMA, Fövqəladə Hallar Nazirliyi və digər qurumlarla əməkdaşlıq edirlər. Yüksək Texnologiyalar Parkının rezident şirkətlərinin layihələrindən bəhs edərkən, zirehli gödəkcələrin və aksesuarların istehsalı, hərbi təyinatlı PUA və dronların, tank və zirehli texnikalar üçün akkumulyatorların istehsalı, atış stimulyatorlarının, radiokontrollu partladıcıların və s. istehsalını misal göstərə bilərəm. İlk rezidentlərimizdən olan AMEA-nın Təcrübi Sınaq Zavodu hərbi və mülki texnikalar üçün sürtkü, sürtkü yağları – mühərrik yağları istehsal edir.

"Azeltech" şirkətinin istehsalı olan "İldırım–RP10" uzaqdan partlatma sistemi, "Sipər" sərhəd mühafizə sistemi sınaqdan keçib və silahlanmaya qəbul edilib. Müdafiə Nazirliyi və DSX ilə müqavilələr imzalanıb. Eləcə də "Buta Armor" şirkətinin istehsalı olan zirehli gödəkcə və dəbilqələrin də sınaqları uğurla tamamlanıb. Bildiyim qədər bu məhsullarla bağlı sifarişlər gözlənilir. Sürtkü yağları da laboratoriya sınaqlarından keçib və ötən il ordu, az həcmdə də olsa, satın alıb.

Texnoparkın rezidenti "Elm və Texnologiyalar Parkı" MMC tərəfindən istehsal edilən dronlar həm mülki, həm də hərbi təyinatlıdır. Burada dronların hazırlanması, istehsalı, xidmət göstərilməsi işi təşkil olunub. Mülki təyinatlı dronlar kənd təsərrüfatında, ətraf mühitin qiymətləndirilməsində – ekoloji monitorinq zamanı, iri sənaye obyektlərinin, neft-qaz xətlərinin monitorinqində, dəniz platformalarının müşahidəsində istifadə oluna bilər. Hərbi və ya müdafiə xarakterli dronlara gəldikdə isə, qeyd etmək istərdim ki, Silahlı Qüvvələrin Hərbi Akademiyası ilə AMEA arasında əməkdaşlıq sazişi imzalanıb. Bu sazişə əsasən, biz Hərbi Akademiyanın Elmi Şöbəsi ilə sıx işləyirik.

***Azeri Defence: Rezidentlərin qəbulunda hərbi yönümlü şirkətlərə hansısa öncəlik verilirmi?***

**Nazim ŞÜKÜROV:** Bu, AMEA Yüksək Texnologiyalar Parkının prioritetlərindəndir və rezidentlərin qəbulunda bu məsələyə xüsusi diqqət yetirilir.

*"Azeltech" şirkəti tərəfindən yaradılmış "gəzən sursat". Foto: AD*

